Zal nəzarətçilərinin fəaliyyətinin illik qiymətləndirilməsi (2025)

DÖVLƏT İMTAHAN MƏRKƏZİ
Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi

Zal nəzarətçiləri bazasının müxtəlif parametrlərə görə tərkibi haqqında məlumat (2025)

DÖVLƏT İMTAHAN MƏRKƏZİ
Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi

Sertifikat kateqoriyasına görə paylanma



2025-ci ildə keçirilən imtahanlara cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 15476 nəfərdən ibarət olmuşdur. Bunlardan 4600 nəfəri zal nəzarətçisi sertifikatı almış şəxslərdir (ümumi bazanın 29,7%-i).

Sertifikatlı nəzarətçilərin ümumi nəzarətçi bazasında payı 2022-ci il ilə müqayisədə 17,7%, 2023-cü il ilə müqayisədə 11,9%, 2024-cü il ilə müqayisədə 3,9% artmışdır.

İş yerinə görə paylanma



Ümumi təhsil müəssisələrindən cəlb edilən nəzarətçilər ümumi bazanın 82,2%-ni təşkil edir. Bu say 2022-ci il ilə müqayisədə təxminən 10,8%, 2023-cü il ilə müqayisədə təxminən 6,8%, 2024-cü il ilə müqayisədə 2,5% azalmışdır.

Sertifikatlı nəzarətçilərin iş yerinə görə paylanması



Ümumtəhsil müəssisələrindən cəlb edilən sertifikatlı nəzarətçilərin ümumi sertifikatlı zal nəzarətçiləri bazasına nisbəti 2022-ci ildə 61,9%, 2023-cü ildə 54,3%, 2024-cü ildə 50%, cari ildə isə 48,1% təşkil etmişdir.

Ümumi bazada sertifikatlı zal nəzarətçilərinin payı əsasən digər sektorlar hesabına artmaqdadır.

Təhsil səviyyəsinə görə paylanma



Nəzarətçilər bazasının 88,8%- ali təhsillidir.

Magistr və yuxarı elmi dərəcəli nəzarətçilərin sayı 2022-ci il ilə müqayisədə 6,8%, 2023-cü il ilə müqayisədə 4,5%, 2024-cü il ilə müqayisədə 1,9% artmışdır.

İxtisasa görə paylanma



Nəzarətçilər bazasının 81%-i riyaziyyat, ingilis dili, kimya, coğrafiya, biologiya, fizika, tarix, ibtidai sinif müəllimliyi ixtisaslarına və pedaqoji profilli olmayan digər ixtisaslara malik nəzarətçilərdir.

Cari il nəzarətçi sayına 2022, 2023 və 2024-cü illərlə birgə baxdıqda deyə bilərik ki nəzarətçi sayı ibtidai sinif müəllimliyi, tarix, ingilis dili ixtisasları üzrə azalmış, coğrafiya, kimya, ana dili və ədəbiyyat, idman, texnologiya, rus dili və ədəbiyyatı və digər xarici dillər üzrə sabit qalmış, riyaziyyat, musiqi, rəsm, psixologiya və digər pedaqoji profilli olmayan ixtisaslar üzrə isə artmışdır. Fizika, biologiya üzrə qeyd olunan illərdə sabit olsa da cari ildə azalmışdır.

Regionlar üzrə paylanma



Nəzarətçilər bazasının 32,3% Bakı şəhərinin, 8,6%-i Gəncə RB-nin, 8,3%-i Sumqayıt və Abşeronun payına düşür.

Digər bölmələr üzrə paylanma 5,0% ilə 7,6% arasında dəyişir.

İmtahan iştirakçılarının regional bölmələr üzrə sayı, faizi (2025-ci il)



Respublika üzrə imtahanlara cəlb sayı: 56110 dəfə

Respublika üzrə imtahanlara 14120 nəzarətçi (bazanın 91,2%-i) 56110 dəfə cəlb edilmişdir. 1356 nəfər müxtəlif səbəblərdən imtahana cəlb edilməmiş və ya imtahanlarda iştirak edə bilməmişdir.

Ortalama olaraq hər bir nəzarətçi 4 dəfə imtahana cəlb edilmişdir.



Qəbul və buraxılış imtahanlarına birlikdə 86,6%-i (13404 nəfər),

- qəbul imtahanlarının ikinci mərhələsinə 55,6%-i (8597 nəfər),

- buraxılış imtahanlarına 69,4% -i (10734 nəfər) cəlb edilmişdir.

Sertifikatlı və digər nəzarətçilərin imtahanlara cəlb edilməsi ilə bağlı statistika



cari bazada zal nəzarətçisi sertifikatı almış 4600 nəzarətçidən hesabat dövrü üçün imtahanlara 4437 nəfər 32663 dəfə - ortalama 7,4 dəfə

digər 9683 nəzarətçi isə 23447 dəfə - ortalama 2,4 dəfə - cəlb edilmişdir.

Regionlar üzrə ortalama cəlb sayı



	Bakı	Sumqayıt, Abşeron	Xaçmaz	Lənkəran	Gəncə	Şirvan	Şəki	Bərdə	Şəmkir	Naxçıvan MR	Göyçay
NS	4992	1289	776	1015	1333	1176	1019	1021	1002	838	1015
CS	24424	5936	2597	3306	4338	3490	2710	2538	2436	2003	2332
OCS	4,9	4,6	3,3	3,3	3,3	3,0	2,7	2,5	2,4	2,4	2,3

Bir nəzarətçinin il ərzində imtahanlara cəlb edilmə sayı keçirilən imtahanların sayından, imtahanda iştirak edən kontingent sayından, rayon üzrə nəzarətçi sayından asılı olaraq bölmədən bölməyə dəyişir.

Bu say respublika üzrə 4, Bakı şəhəri üzrə 4,9, Sumqayıt və Abşeron üzrə 4,6-dır. Digər bölmələr üzrə 2,3 ilə 3,3 arasında dəyişir.

Nəzarətçilərin imtahanlara cəlb edilmə sayına dair qrafik təsvir



Nəzarətçinin fəaliyyətini kim və necə qiymətləndirir?

imtahan rəhbəri tərəfindən

imtahandan sonra DİM tərəfindən

İmtahan rəhbəri tərəfindən qiymətləndirmə iki ana meyar əsasında aparılır.

1.1. İmtahan zalının idarə edilməsi

1
İmtahanda sakitliyin təmin olunması



2
Etik davranış qaydalarına riayət

3
Zalı nəzarətdə saxlaması



4
Fiziki imkanları və pedaqoq-müəllim keyfiyyətləri



5
Qayda pozuntularının qarşısını alması və lazımi tədbirləri görməsi

1.2. Sənədlərlə iş meyarı

1
İştirakçıların sənədlərinin yoxlanılması və yerləşdirilməsi :

2
İştirakçıları imtahanda davranış qaydaları ilə tanış etməsi :

3
İmtahan sənədlərinin paylanması :

4
İmtahan sənədlərinin doldurulması və vaxtla bağlı qaydalara riayət :

5
Sənədlərin yığılması, möhürlənməsi və təhvil verilməsi

İmtahandan sonra DİM tərəfindən aparılan qiymətləndirmə

2.1. Köçürmə hallarının araşdırılması

Xüsusi proqram təminatı vasitəsi ilə imtahan zalında aşağıdakı meyarlar nəzərə alınaraq köçürmə halları təhlil edilir və qiymətləndirmə aparılır.

- **bir abituriyentin bir fənn üzrə digər abituriyentdən köçürmə faizi;**
- **köçürülən fənlərin zal üzrə ümumi fənlərin sayına nisbəti;**
- **köçürən abituriyentlərin zal üzrə ümumi abituriyentlərin sayına nisbəti ;**
- **abituriyentlərin yaş qrupları.**

Zəif

Davamlı şəkildə zəif köçürmə halı aşkar olunduqda zal nəzarətçisi bazadan kənarlaşdırılır.

Orta

2 və daha çox köçürmə halı aşkar olunduqda zal nəzarətçisi bazadan kənarlaşdırılır.

Ağır

İmtahan zalında ağır köçürmə halı aşkar olunduğu halda zal nəzarətçisi bazadan kənarlaşdırılır.

2.2. Digər ciddi təlimat pozuntularının sistemə işlənməsi

İmtahan zamanı zalda mobil telefondan istifadə olunması, sual kitabçalarının və cavab kartlarının dəyişdirilməsi, etik davranış qaydalarının pozulması və s. hallar kodlaşdırılaraq qiymətləndirmə aparılır.



Yekun qiymətləndirmə (2025)



Cari il buraxılış imtahanlarına və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsində imtahanlarda iştirak etmiş nəzarətçilərin bütün fəaliyyəti nəzərə alınmaqla, 89,2%-nin fəaliyyəti əla, 5,8%-nin yaxşı, 1,9%-nin kafi, 0,5%-nin isə qeyri-kafi qiymətləndirilir.

160 nəfər zal nəzarətçisi imtahan rəhbəri təyin olunmuşdur.

2025-ci ildə zal nəzarətçiləri bazasından 935 nəfər müxtəlif səbəblərlə çıxarılmışdır. Bunlardan 286 nəfəri birbaşa imtahanla bağlıdır.

Səbəb	Nəzarətçi sayı
• İmtahanda iştirakdan dəfələrlə imtina etdiyinə görə	346
• Sosial məzuniyyətdə olduğuna görə	122
• Cari ildə keçirilən imtahanlarda ağır dərəcəli köçürməyə yol verdiyinə və köçürməyə şərait yaratdığı (sual kitabçalarının, cavab kartlarının dəyişdirilməsi, konspektdən istifadəyə göz yummaq və s.) imtahan rəhbəri tərəfindən müəyyənləşdirildiyinə görə	159
• Cavab kartını, cavab vərəqini, sual kitabçasını, yazı işi vərəqini səhv verdiyinə görə	14
• İmtahan iştirakçısı imtahan zalından cavab kartını və ya cavab vərəqini və ya yazı işi vərəqini çıxarıb	10
• İmtahan zalında imtahan rəhbəri tərəfindən telefon aşkarlandığına və ya özü ilə imtahan binasına telefon keçirdiyinə görə	6
• İmtahan zalını idarə edə bilmədiyinə və imtahan zamanı iştirakçılarla söhbət etdiyinə görə	42
• Sənədlərlə iş bacarığı və prosedur qaydalara dair məlumatı zəif olduğuna görə (cavab vərəqini sual kitabçası zərfinə qoymaq, cavab vərəqini vaxtında təhvil almamaq, sual kitabçasını iştirakçıya vaxtından əvvəl vermək, iştirakçını səhv yerdə əyləşdirmək, iştirakçıları vaxtından əvvəl buraxmaq, imtahan zamanı zaldan çıxmaq)	16
• Etik davranış qaydalarını pozduqlarına görə	14
• Nəzarətçi vəsiqəsini götürdüyü halda dəfələrlə imtahanlarda iştirak etmədiyi üçün	25
• Müqavilə bağlamadığına və ya müqaviləyə xitam verdiyinə görə	23
• İşdən çıxdığına və ya təqaüdə çıxdığına görə	114
• Digər səbəblər (səhhəti imkan vermir, vəfat edib, ölkə xaricindədir, hərbi xidmətdədir, ailə vəziyyəti imkan vermir, direktor təyin edildiyinə görə, dövlət qulluqçusu olduğuna görə)	44

Zal nəzarətçilərinin illik fəaliyətinin təhlili ilə bağlı bəzi nəticələr (2025)

1. kompüter proqramı tərəfindən müəyyən edilən köçürmə hallarının statistikası göstərir ki, nəzarətçinin imtahanda iştirak sayı (təcrübəsi) ilə baş verən köçürmə hallarının sayı arasında korrelyasiya yoxdur.

2. zal nəzarətçisinin imtahanda iştirak sayı (təcrübəsi) az olduqda o, imtahan rəhbərləri tərəfindən qeyd olunan digər qayda pozuntularına (cavab vərəqini sual kitabçası zərfinə qoymaq, cavab vərəqini vaxtında təhvil almamaq, sual kitabçasını iştirakçıya vaxtından əvvəl vermək, iştirakçını səhv yerdə əyləşdirmək, iştirakçıları vaxtından əvvəl buraxmaq, imtahan zamanı zaldan çıxmaq və s) daha çox yol verir.

3. sertifikatlı nəzarətçilər daha az qayda pozuntularına yol verirlər.

4. regional bölmələri əhatə edən rayonlarda keçirilən buraxılış və qəbul imtahanlarında yol verilən qayda pozuntuları Bakı, Sumqayıt, Abşeron əraizisndə keçirilən imtahanlarda yol verilən qayda pozuntularından iki dəfə çoxdur.

5. ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində əvvəlki il məzunlarının yerləşdirildiyi zallarda daha çox qayda pozuntuları baş verir.

6. buraxılış və əvvəlki il məzunları üçün orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında cari il məzunlarının yerləşdirildiyi zallarda daha çox qayda pozuntuları baş verir.

7. cari ildə qəbul imtahanlarında əsasən fizika, kimya, tarix, ingilis dili, texnologiya və ibtidai sinif müəllimləri daha çox qayda pozuntularına yol veriblər. İbtidai sinif müəllimləri həm cari ildə, həm də 2024, 2023 və 2022-ci illərdə qəbul və buraxılış imtahanlarında daha çox qayda pozuntusuna şərait yaratmışlar.

DÖVLƏT İMTAHAN MƏRKƏZİ
Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi

İllərə görə yekun qiymətləndirmə (2015-2025)



Nümunəvi zal nəzarətçilərinin seçilməsi meyarları (2025)

DÖVLƏT İMTAHAN MƏRKƏZİ
Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi

Seçimin 1-ci mərhələsində baxılan meyarlar:

- **iştirak sayı:** indiyə qədər ən az 15 imtahanda iştirak edən;
- **idarəetmə qabiliyyəti:** təyin olunduğu zallarda qayda pozuntusu halları aşkarlanmayan;
- **davamiyyət:** Bir qayda olaraq cəlb olunduğu bütün imtahanlarda iştirak edən;
- **cari qiymət:** Cari ildə imtahan rəhbərinin protokollarında 4 və 5 ilə qiymətləndirilən və heç bir təlimat pozuntusuna yol verməyən;
- **yekun qiymət:** qeyri-kafi qiymət almayan və yekun qiyməti 4-dən böyük olan və cari ildə yekun qiymətini daha da yaxşılaşdıran;
- **ictimai (abituriyent, valideyn) rəy:** ali təhsil müəssisələrinə qəbul imtahanlarında 600-dən yuxarı bal toplayan abituriyentlərin fəaliyyətinə verdiyi qiyməti 4 və 5 olan və imtahanların gedişi haqqında daxil olan şikayət və sorğuların müsbət nəticələri

Qeyd: 2025-ci ildə keçirilən test imtahanlarında iştirak etmiş nəzarətçilər arasından yuxarıdakı meyarlar əsasında seçim aparılaraq fəaliyyətləri yüksək qiymətləndirilən nəzarətçilərin sayı **2399 nəfərdir**.

Seçimin 2-ci mərhələsində baxılan meyarlar:

Fəaliyyəti yüksək qiymətləndirilən nəzarətçilər arasından fəxri fərmanla təltif olunacaq **30 nəfər** müəllim aşağıdakı meyarlar əsas alınaraq seçilmişdir:

- **keyfiyyət göstəricilərinin davamlılığı**: son 5 il ərzində fəaliyyəti yüksək qiymətləndirilən;
- **təcrübə sayı və fəallıq:** Ən az 25 imtahanda iştirak edən ;
- **çox yönlü qiymətləndirmə:** 600-dən yüksək bal toplayan abituriyentlər və müxtəlif imtahan rəhbərləri tərəfindən fəaliyyəti əsasən 5 qiyməti ilə qiymətləndirilən və daxil olan müraciət və sorğuların yüksək müsbət nəticələri

2025-ci il də daxil olmaqla indiyə qədər DİM-in keçirdiyi imtahanlarda nümunəvi fəaliyyətinə görə fərqlənmiş 7681 nəzarətçiyə təşəkkür elan edilmiş, bunlardan 496 nəfəri isə fəxri fərmanlarla təltif edilmişdir.